Elm .- 2025.- 30 may(№19).- S.8.

# Seysmoloji təhlilin differensiyasiyalı ssenar metodu

**ETN Geologiya və Geofizika İnstitutunun Seysmologiya və seysmik təhlükənin qiymətləndirilməsi şöbəsinin rəhbəri y.e.e.d., dosent Qulam Babayevin "Seysmoloji təhlilin differensiyasiyalı ssenar metodu" (Böyük Qafqazın cənub-şərq yamacı timsalında) monoqrafiyası ingilis dilində çapdan çıxıb.**




Müəllifin şərhinə görə, elmi əsərdən məqsəd seysmoloji təhlilin differensiyasiyalı ssenar metodologiyası sahəsində tədqiqatlar üçün əsas formalaşdırmaqdır. Kitabda risklər və qeyri-müəyyənliklər şəraitində hadisə ssenarilərinin tərtib edilməsində əsas nəzəri metod və yanaşmalar işıqlandırılır, ssenarilərin emalının əsas aspektləri təsvir edilir. Eləcə də Azərbaycanda seysmologiya elminin inkişaf tarixinə dair tədqiqatlar təqdim olunur, ölkəmizdə bu istiqamətdə töhfələri olan elm xadimlərinin fəaliyyətinin qısa biblioqrafik icmalı əksini tapır. Böyük Qafqazın cənub-şərq yamacının hesablanmış qiymətlər əsasında zəlzələnin maksimal maqnitudasını, titrəyişlərin intensivliyini, amplitudanın gücləndirilmə əmsalını və qruntun maksimal təcilini özündə ehtiva edən differensiyasiyalı ssenar seysmik modelləri qurulur, araşdırılan coğrafi məkanın cənub-şərq yamacında bir sıra seysmik təsirlərin əmələ gəlməsinin səbəbləri göstərilir.

Monoqrafiya ingilis dilində təhsil alan tələbələr, doktorantlar, eləcə də bu elmi sahədə çalışan müəllimlər və seysmoloqlar üçün nəzərdə tutulub.